Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2022, **s. 18-21**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2022, **с. 18-21**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2022, **pp. 18-21**

TƏLİM VƏ TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI (MUSİQİNİN TƏDRİSİ METODİKASI)

UOT 781

A.H.Qəribova
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: qaribova.arifa@gmail.com

SOLFECİO DƏRSLƏRİNDƏ TƏLƏBƏLƏRİN METRO-RİTM HİSSİYATININ İNKİŞAFI

Açar sözlər: *solfecio, metro-ritm, forma, eşitmə qabiliyyəti, üzdən oxuma*

Məqalədə solfecio dərslərində tələbələrin metro-ritmik bacarıqlarının formalaşdırılması üzrə əsas istiqamətlər qeyd olunmuş, dərslərdə tətbiq etdiyimiz bəzi tapşırıq formaları təklif edilmiş, çoxillik pedaqoji təcrübəmiz əsasında işlənib-hazırlanmış metodik prioritetlər göstərilmişdir.

А.Г.Гарибова

РАЗВИТИЕ ЧУВСТВА МЕТРОРИТМА СТУДЕНТОВ НА УРОКАХ СОЛЬФЕДЖИО

Ключевые слова: *сольфеджио, метроритм, форма, слух, чтение с листа*

В данной статье были обозначены основные направления занятий со студентами по формированию у них метроритмических навыков на уроках сольфеджио, предложены некоторые формы заданий, практикуемых нами на уроках, указаны методические приоритеты, выработанные нашим многолетним педагогическим опытом.

A.H.Garibova

DEVELOPMENT OF THE SENSE OF METR AND RHYTHM OF STUDENTS AT THE LESSONS OF SOLFEGGIO

Keywords: *solfeggio, metro rhythm, form, hearing, sight-reading*

In this article, the main directions in classes with students on the formation of their metro-rhythmic skills were outlined at the lessons of solfeggio, some forms of tasks that we practice in the lessons were proposed, methodological priorities suggested by our many years of pedagogical experience were indicated.

İntonasiya-lad eşitmə qabiliyyətinin tərbiyəsi, solfecio oxuma bacarıqlarının mənimsənilməsi, həmçinin musiqini şüurlu və səriştəli şəkildə eşitmə yolu ilə və notla təhlil etmək bacarığı ilə yanaşı, solfecio kursunun ən vacib vəzifələrindən biri metro-ritm hissiyatının inkişafıdır. Tələbələrin musiqi qabiliyyətlərinin inkişafı üçün bu sistemdə metro-ritm xüsusi əhəmiyyət kəsb edir, çünki metro-ritmi musiqinin zaman daxilində təşkilidir, musiqinin özü isə zaman-vaxt sənət növlərindən biridir.

"Metro-ritm" termini bir-biri ilə əlaqəli iki anlayışı ehtiva edir: metr və ritm. Metr musiqi məkanını bərabər "hissələrə" bölür və musiqi vaxtını tənzimləyir. Təsadüfi deyil ki, musiqiçilərin dirijorluq sxemi tez-tez "tor" adlanır. Çünki o, bərabər zaman hüceyrələrinə - vəznlərə bölünməni əks etdirir. Ritm, müəyyən bir metrə tabe olan ölçü birləşmələrinin zənginliyi və müxtəlifliyidir.

Tələbələrdə metr hissini inkişaf etdirmək onların təfəkküründə öz metronomunu, musiqi vaxtı hesablayacaq öz daxili "saatını" formalaşdırmaq deməkdir. İnkişaf etmiş musiqi vaxtı hissi musiqi formasını dərk etmək (hiss etmək) üçün zəruri bir mərhələdir. Buna görə də metro-ritm üzərində iş frazalaşma və cümlələr arasında nəfəs üzərində iş ilə birlikdə aparılmalıdır.

Metr hissiyatını inkişaf etdirdikdə, vacibdir ki, tələbə təkcə metrik nəbzləşməni qavramaq, eşitmə yolu ilə təyin etmək deyil, həm də ifa etdiyi əsərdə "tempi saxlaya" bilsin. Yaxşı metr hissiyatı həm də ansambl ifası üçün əvəzsiz şərtdir, çünki yalnız ifaçıların "daxili saatı" sinxronlaşdırıldıqda taraz, hamar səslənməni əldə etmək olar.

Metro-ritm üzərində işin başqa bir tərəfi var: səlis üzdən oxuma qabiliyyətinin formalaşması. Tələbələr tanış olmayan musiqi mətni ilə işləyərkən onun həm səs yüksəkliyinə, həm də metro-ritmik planına diqqət yetirirlər. Metro-ritmik priyomlarının inkişafı ilə bağlı məsələləri ayırmaq və həll etmək pedaqoji cəhətdən məqsədəuyğundur, çünki onları tipləşdirmək daha asandır. Bu, həm də psixoloji xarakterli problemləri həll etməyə imkan verəcək, məsələn mürəkkəb şəkildə təşkil edilmiş ölçüləri olan "qara" mətn qorxusu. Bu baxımdan işin mühüm mərhələsi kimi müxtəlif ritmik şəkillərin, qruplaşdırma qaydalarının, mətn yazılışının ənənəvi və qeyri-standart formalarının mənimsənilməsi çıxış edir. Əl koordinasiyası ilə bağlı vərdişlər də paralel olaraq həll edilməlidir. Ritmik şəklin oxunuşunda sərbəstlik tanış olmayan musiqi mətninin mənimsənilməsi prosesini xeyli asanlaşdırır və tələbənin diqqətini musiqi parçasının ifadəliliyinə yönəltməyə

imkan verir.

Gənc musiqiçinin savadının tərkib hissələrindən biri eşitdiklərini (və ya bəstələdiklərini) yazmaq bacarığıdır. Bu bacarığın formalaşmasına müxtəlif imla formaları xidmət edir. Əgər səsin yüksəkliyi çoxları üçün problem təşkil etmirsə, metro-ritmik aspekt tələbələrin topladığı bütün biliklərin aktivləşdirilməsini tələb edir.

Metro-ritmin öyrənilməsinə ölçü (metrik nəbzləşmənin ədədi ifadəsi), xanə (bir güclü vurğudan digərinə qədər vaxt vahidi) və temp (metrik vəznlərin nəbzləşməsi tezliyi) kimi musiqi nitqinin elementləri daxildir. Tələbələrin diqqətini tempə, ölçüyə və ritmə cəlb etməklə, onların əsərin xarakterinin, musiqi obrazının yaradılmasında rolunu göstərmək lazımdır. Bu vasitələr hərəkət və sakitliyi, dinamika və statikanı, həyəcan və sakitliyi, həmçinin bu və digər halların müxtəlif çalarlarını ifadə edə bilər. Başqa musiqi ifadə vasitələri ilə yanaşı onlar həm də musiqidə janr əlamətləridir. Tələbələrin ifa edilən və ya səsləndirilən əsərə şüurlu münasibətinin formalaşdırılması vacibdir. Belə analitik qabiliyyətə malik olan tələbələr öz musiqi təcrübəsində temp seçiminə, ifa ştrixlərinə və s. daha incə və dəqiq yanaşacaqlar.

Qoyulmuş məqsədə nail olmaq və fənnin vəzifələrini həyata keçirmək üçün aşağıdakı tədris metodlarından istifadə oluna bilər:

- təhsil fəaliyyətinin təşkili metodu (şifahi, əyani, praktiki);
- reproduktiv üsul (əldə edilmiş biliklərin təkrarı);
- stimullaşdırma və həvəsləndirmə metodu (tələbənin marağının formalaşdırılması);
- fəal təlim metodu (təhsil materialını müstəqil, təşəbbüskar və yaradıcı şəkildə mənimsəmək üçün tələbələrin motivasiyası);
- analitik (müqayisə və ümumiləşdirmələr, məntiqi təfəkkürün inkişafı);
- emosional (assosiasiyaların, surətlərin (obrazların), bədii təəssüratların seçilməsi).

Ümumi inkişaf proqramı çərçivəsində təklif olunan bu iş üsulları, fikrimizcə, təhsil prosesinin təşkilində ən məhsuldardır.

Solfecio dərslərində tələbələrdə metro-ritm hissinin inkişafı işində eşitmə təəssüratları əsas olmalıdır: metro-ritmin bu və ya digər elementinin nəzəri öyrənilməsinə yanaşmaq, əgər o, musiqi təəsüratlardan götürülməmişdirsə, arzuolunmazdır. Məsələn, polkanın metro ritmini öyrənərkən tələbələr polkanın bir neçə variantını dinləməklə onun xarakterik xüsusiyyətlərini özləri-özləri üçün sanki "kəşf etməlidirlər". Fikrimizcə, ardıcıl əlaqə yaradılmalıdır: eşidirəm – başa düşməyi öyrənirəm, başa düşürəm – musiqi fəaliyyətimdə tətbiq etməyi öyrənirəm. Qeyd etmək vacibdir ki, ritm musiqi sintaksisinin mühüm tərkib hissəsidir – musiqi əsərinin ayrı-ayrı quruluşlara (motivlər, ifadələr, cümlələr və s.) bölünməsi. Bu isə o deməkdir ki, metro-ritm hissinin inkişafı ilə bağlı tapşırıqlarda təkcə ritmik şəklin aydın icrasına nail olmaq deyil, həm də onun

forma əməlgətirən roluna diqqət yetirmək lazımdır.

Ritmik şəkilləri döymək yox, demək daha yaxşı olar, çünki bu halda intonasiya mövcuddur. Yeri gəlmişkən, ritmə intonasiya, tembr, registr və dinamika kimi komponentlərin daxil edilməsi öyrənməni daha əyləncəli və səmərəli edir.

Solfecio müəllimi müəyyən metro-ritmik bacarıqların inkişaf etdirilməsinin məqsədini və perspektivini dəqiq bilməli, bütövlükdə qrupun və hər bir tələbənin fərdi olaraq "inkişaf mərhələsinin" nə olduğunu aydın başa düşməlidir ki, tələbələr müəyyən bilik bazası toplayıb, müxtəlif musiqi fənləri, məsələn, xor sinfi, dirijorluq, vokal, aranjiman və s. üzrə daha çətin nəzəri və praktiki materialın qavranılması üçün yuxarı kurslara kifayət qədər hazırlıqlı gələ bilsinlər.

Beləliklə, metro-ritm hissiyatının inkişafı aşağıda göstərilən aspektlərdən ibarətdir:

1. Tələbələrdə "daxili metronomun" tərbiyəsi və işə salınması;
2. Sintaksik araşdırma vərdişləri (sezuraların paylaşdırılması);
3. Ritmik şəkli müstəqil oxumaq bacarığı;
4. Eşitdiklərini (və ya bəstələdiklərini) savadlı şəkildə yazmaq bacarığı;
5. Təhlil etmək bacarıqları.

Metro-ritm vərdişlərinin inkişafı üzrə işin müxtəlif formaları mövcuddur: bunlar səs-küy orkestrlər və müxtəlif növ imlalardır; bunlar yazılı və şifahi tapşırıqlar, ritmik partituralar, kanonlar, ritmik ostinato və sekvensiyalardır. Şübhəsiz ki, hər bir nəzəriyyəçi-müəllimin biliklərin ötürülməsi sistemində öz tapıntıları vardır. Bununla belə, biz hesab edirik ki, metro-ritmik bacarıqların inkişafında "musiqi vaxtı" hissiyatının (ritmin musiqi vaxtı prosesində yerləşdirilməsinin) inkişafı prioritetdir, çünki o tələbələrin çevik təfəkküründə formalaşmasına töhfə verir və yaradıcılıq proseslərini stimullaşdırır.

ƏDƏBİYYAT

1. N.Bağırov. Solfecio. Bakı, 1987
2. K.İsmayılova. Solfecio fənninin tədrisi metodikası. Bakı, 2009, 192 s.
3. Qədimova J. Musiqinin tədrisi metodikası. Bakı, 2007, 323 s.
4. Как преподавать сольфеджио в 21 веке. Сост. О.Берак, М.Карасева. Москва, 2006
5. F.Zeynalova, M.İsmayılov. İbtidai musiqi nəzəriyyəsi. Bakı, 2006, 143 s.

Məqalənin redaksiyaya daxil olma tarixi: 03.01.2022
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 06.01.2022
Məqalənin çapa qəbul olunma tarixi: 15.02.2022
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.